Məzhəblə gedənlərin gətirdiyi şübhələrə cavab

İndi özlərini Hənbəli, Məliki, Şafii və Hənəfi adlandıranlar, səhih dəlil olmasına rağmən, bir-başa məzhəblərinə təqlid edirlər ki, bu cür təqlid haramdır! (Təqlid- yəni, dəlilsiz alimə tabe olmaq)
Yəni, əgər məzhəblərinin söylədiyi münkər və uydurma hədisə əsaslanırsa və eyni zamanda həmin dəlil Rasulullahdan -sallAllahu aleyhi və səlləm- varid olan səhih dəlilə ziddirsə, onlar məzhəblərinin sözünü götürüb, səhih dəlili kənara atırlar.
Zahiri məzhəbinin imamı İbn Həzm -rahiməhullah- alimlərin icmasını nəql edib ki, 4 məzhəb imamına görə təqlid haramdır!

Məzhəblə gedənlərin gətirdiyi şübhələr və onların cavabı:

I ŞÜBHƏ:

- Bütün alimlər məzhəblə gediblər!

Bu şübhənin cavabı:

a) Bütün alimlərin məzhəblə getdiyini söyləyən yalançıdır. Məs: İmam Buxari 4-Məzhəb imamından sonra yaşamışdır. Hətta sonuncu məzhəb imamı sayılan Əhməd ibn Hənbəlin hədisdə tələbəsi olmuşdur.
Buna baxmayaraq o məzhəb ilə getməmişdir.
b) Bəli, bir çox alimlər məzhəbdə olub. Məs:
Əbu Yusuf, Muhəmməd Şeybəni, İmam Zufər, Tahavi və s.- Hənəfi məzhəbində olub.
İbn AbdulBərr, İmam Qurtubi və s.- Məliki məzhəbində olub.
Nəvavi, İbn Həcər, İbn Kəsir, Zəhəbi və s.- Şafi məzhəbində olub.
Hafiz ibn Racəb, İbn Qudamə, Muhəmməd ibn AbdulVahhabvə s.- Hənbəli məzhəbində olub.
Fəqət, bu alimlərin məzhəbdə olması onların anladığı kimi deyildir və indi özünü məzhəbə nisbət edən siravi müsəlmanların məzhəbdə olmasına bənzəmir, ümumən onlara aidiyyatı da yoxdur. Çünki indikilərin məzhəblə getməyi məzhəb çərçivəsində kənara çıxmır, kənara çıxmağı da haram görür. Yəni, məzhəbin halal dediyinə halal, haram dediyinə isə haram deyirlər. Sanki bu məzhəb səmadan enmiş dindir və bu məzhəbin imamı da məsumdur.
Bu alimlər məzhəbdə olmaqla məzhəb imamlarına təqlid etməmişdirlər.
Sual: Bəs onların məzhəblə getməsi nə deməkdir?
Cavab: Onlar üsulda məzhəbdə idilər, füruda deyil!
Necə ki, Əbu Hənifənin tələbələri Əbu Yusuf və Muhəmməd əş-Şeybəni 40%, İmam Zufər isə 90% fətvalarında Əbu Hənifəyə müxalif olmuşdurlar. Eləcə də digərləri.
Çünki onlar müctəhid idi və sərbəst ictihad edirdilər. Fəqət onlar Hənəfi məzhəbində sayılır, ona görə yox ki, Əbu Hənifəni təqlid edirlər, çünki görürük ki, onlar təqlid etməmişdirlər. Ona görə ki, onlar üsulda Əbu Hənifənin üsulu ilə gedirdilər.
Və ya imam Tahavi Hənəfi məzhəbində olsa da, verdiyi fətvaların bəzisi Hənbəli məzhəbinin, bəzisi digər məzhəblərin rəyidir. O Əbu Hənifəyə təqlid etmirdi.
Və ya Məliki məzhəbinə ən məşhur rəy namazda əllərin açılmasıdır. Fəqət, İbn AbdulBərr Məliki məzhəbində olsa da, Təmhid əsərində deyir: "Rasulullahdan nəql olunan bütün hədislər, namazda əllərin bağlanmasına dəlalət edir və bunun əksini göstərən heç bir dəlil yoxdur."

Və ya İbn Həcər Buxarinin Səhih əsərini şərh edib, bu şərh zamanı İbn Həcər, həmin kitabda fiqh haqqında olan hədisləri öz məzhəbinə görəmi şərh edib? Əlbəttə ki, xeyr. O muhəddislərin üslubu ilə şərh etmişdir və bir çox məsələdə məzhəbinin imamına, yəni İmam Şəfiiyə müxalif olmuşdur.
Qısası hər hansısa məzhəbdə olduğunu iddia etmək haqqı- alimlərdədir. Yalnız onların buna haqqı çatır, daha Əbu Hənifənin və digər üç alimin üsulundan xəbəri olmayanın mən Hənəfiyəm və s. deməyə haqqı yoxdur! Yəni, onların özlərini alimlər ilə qiyas etməsi batil qiyasdır.

II ŞÜBHƏ:
- (Həmin məzhəblə gedənlərə səhih hədis təqdim etdikdə və bu səhih hədis onların məzhəbinin dəlili ilə ziddiyyət təşkil edərsə, onlar məzhəbin rəyini götürüb- deyirlər:) ***"Məgər Əbu Hənifə, İmam Məlik, İmam Şafii və İmam Əhməd bu hədisdən qafil idilərmi? Necə oldu ki, onlar bilmədi, siz bildiniz?"***
Bu şübhənin cavabı:
- Bu elmsiz bir iddiadır. Çünki hər bir məzhəblə gedən bu iddianı qarşı tərəfə söyləyə bilər. Məs: Hənəfi məzhəbinə görə qadına əlin toxunması dəstəmazı pozur, Şafii məzhəbinə görə isə pozmur. Hər iki məzhəb nümayəndəsi öz məzhəb imamı haqqında "Ondan çoxmu bilirsən?"- deyə bilər. Bu iddia ilə 4 məzhəb imamını qarşı-qarşı qoymaq olar. Bu elmi dəyəri olmayan, batil bir sözdür.
İmam Əbu Hənifə söyləyir:
- Hədis səhihdirsə o mənim məzhəbimdir. Biz bəşər övladıyıq. Bu gün bir rəy deyirik, sabah başqa bir rəy deyirik. Əgər Uca Allahın kitabına və rasulullahın (sallALlahu aleyhi və səlləm) sünnəsinə zidd nə isə söyləsəm, mənim sözümü qəbul etməyin!
İmam Məlik deyir:
- Peyğəmbərdən –sallAllahu aleyhi və səlləm- başqa hər kəsin sözü qəbul və rədd edilə bilər. Mən insanam, səhv də edir, düz də söyləyirəm. Mənim söylədiklərimə diqqətlə fikir ver. Kitab və Sünnəyə uyğun gələnini götür, uyğun gəlməyəni isə rədd et!
İmam Şəfii buyurur:
- Əgər mənim hər hansısa bir sözüm səhih hədisə müxalifdirsə, səhih hədisi götür, mənim sözümü divara çırp!
İmam Əhməd buyurur:
- Nə məni, nə də Məliki və nə də Şafiini təqlid etmə. Həmçinin Əuzaini, Səurini təqlid etməyin. Onların əxz etdiyi mənbələrdən siz də siz də götürün.
III ŞÜBHƏ:

- "Yuxarıda sadalananlar ancaq alimlərə, yəni muctəhidlərə aiddir."
Bu şübhənin cavabı:

- Bu batil sözdür. Bunu fiqhdən cahil olanlar söyləyərlər. Çünki muctəhidlərin bu sözə ehtiyacları yoxdur. Və ittifaqla bir müctəhidin digər müctəhidi təqlid etməsi haramdır. Yəni, bunların fikrinə görə məs: Əbu Hənifə imam Şəfiiyə deyir ki, məni təqlid etmə! Məgər Şafii onu təqlid edirdi? Tarixdə elə bir dəlil yoxdur ki, hər hansısa müctəhid digər müctəhidi təqlid etsin.

Muhəmməd ibn Həsən deyir:
- Bu və bu qəbildən olan sözlər müctəhidlərə aid deyil. Çünki onların bu sözlərə ehtiyacları yoxdur. Bu təqlid edənlərə deyilən sözdür.
(əl-Fuləni, əl-İqaz-kitabı, səh. 50)
Alimlərin bu sözləri təqlid etməyənlərə (muctəhidlərə) aid deyil, təqlid edənlərə aiddir. Çünki bu sözlərdə təqlid etmək qadağan olunur. Bildiyimiz kimi isə muctəhidlər digər muctəhidi təqlid etmirlər.
Məhz bu səbəbdən də, yəni təqlid olunmaq qorxusundan İmam Əhməd öz fiqhinin yazılmasını qadağan etmişdir.

IV ŞÜBHƏ:

- (Biz bir məsələnin səhih hədisə əsasən bu cür olduğunu söylədikdə, məzhəblə gedənlər həmin məsələnin məzhəbin çoxsaylı alimlərə görə başqa cür olduğunu iddia edir. Və ardınca söyləyirlər:) – ***"Necə oldu ki, düz olmayan bir rəyi bu qədər çoxsaylı, əsrdən əsrə keçən məzhəb alimi söyləmişdir. Yəni, bu qədər alimlərin bu hədisdən xəbəri olmadımı ki, batil bir hədisi hər biri öz kitabında qeyd etdi?"***

Bu şübhənin cavabı:

- Bunu iddianı irəli sürən öz məzhəblərinin kitablarını necə yazılmasından, məzhəblərinin şəcərəsindən xəbərsizdirlər. Hər hansısa məzhəbin özəyi bir neçə (çoxsaylı cildli) kitab əsasındadır. Ondan sonra gələn həmin məzhəb alimləri isə məhz o kitablar üzərində öz kitablarını yazmış və məzhəbin özəyi adlanan kitablarda olan hədisləri araşdırmamışdırlar. Yəni, təqlid üslubunda kitablarını yazmışdır. Məs, sonrakı alim məzhəbin əsas kitabını ixtisar edir, ondan sonra gələn alim isə həmin ixtisar olmuş kitabın üzərində işləyir və onu fəsillərə ayıraraq səliqəyə salır. Bu qeyd etdiyim hər iki alim kitabı araşdırmadı, sadəcə təqlid əsasında kitab yazdı.
Fəqət məzhəb alimləri var ki, məzhəb dəlillərini müqayisə edərək əsərlər yazmışdır. Buna da müqayisəli fiqh deyilir. Məs, Hənbəli məzhəbində, ibn Qudamənin Muğni əsəri, Məliki məzhəbində İbn AbdulBərrin Təmhid əsəri.
Və ya Əbu Davud əz-Zahiri (rahiməhullah) misal çəkək. Əbu Davud Şəfii məzhəbində idi, sonra isə o bəzi məsələlərdə İmam Şəfiiyə müxalif olur. Və Əbu Davudun müstəqil ictihad edərək, üsulda İmam Şafiiyə müxalif olması ayrıca bir məzhəbin- Zahiri məzhəbinin əmələ gəlməsinə səbəb oldu.
Məzhəblərini təqlid edənlər, bu halları ilə bidət içindədirlər, çünki onlara səhih hədis gəldikdə məzhəblərinin müqabilində onu inkar edirlər. Onlar getdikləri məzhəblərin üsuli fiqhindən belə xəbərsizdirlər.

Müəllif: Əbu Zeyd